# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 74** **Bakı şəhəri, 7 mart 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 noyabr tarixli 1888 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695; 2013, № 10, maddə 1228; 2014, № 1, maddə 56; 2017, № 4, maddə 666; 2018, № 11, maddə 2431; 2019, № 2, maddə 357, № 11, maddə 1863; 2020, № 1, maddə 67; 2021, № 2, maddə 205, № 3, maddə 286, № 6 (IV kitab), maddə 665; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 448 nömrəli və 2023-cü il 12 yanvar tarixli 6 nömrəli qərarları) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qayda-ları"nın 7.4-cü bəndində "Əcnəbilər" sözü "Dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən əcnəbilər" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

Xalq qəzeti.- 2023.- 11 mart.- S.10.